

# Mədəniyyətlərarası dialoq və əməkdaşlıq məkanı

## İlham ƏLİYEV: *"Azərbaycan əsrlər boyu dinlər, mədəniyyətlər və sivilizasiyaların bir araya gəldiyi məkan olmuşdur. Biz Şərq ilə Qərb arasında yalnız coğrafi körpü deyil, həm də mədəniyyət körpüsüyük"*

Çağdaş dünyamızın ən güclü dövləti o dövlətdir ki, mədəniyyətə xitab edir, dünyanın gələcəyini qanlı savaşlarda deyil, mədəniyyətlərin dialoqunda görür və bu hədəf uğrunda çalışır. Bu gün tarixin elə bir məqamına yetişmişik ki, dünyanın sürətlə dəyişən hadisələrini çox zaman əvvəlcədən proqnozlaşdırmaq və qiymətləndirmək bir o qədər asan olmur. Bunun əsas səbəbi isə milli, mədəni, ideoloji və dini ziddiyyətlərin gündən-günə artmasıdır. Onların qarşısının alınması üçün dünyanın hər yerində tolerantlıq, mehriban birgəyaşayış, qarşılıqlı anlaşmanın təbliği çox önəmlidir.

Belə bir zərurəti nəzərə alaraq Bakıda ümumdünya mədəniyyətlərarası dialoq forumlarının keçirilməsi mühüm əhəmiyyət kəsb edir. Bu təşəbbüsün əsası 2008-ci ilin 2-3 dekabrında Bakıda keçirilən Avropa və İslam ölkələri mədəniyyət nazirlərinin konfransında Prezident İlham Əliyev tərəfindən irəli sürülən "Bakı prosesi" ilə qoyulmuşdur. Həmin konfransda Azərbaycanın təşəbbüsü ilə "Mədəniyyətlərarası dialoqun təşviqinə dair Bakı Bəyannaməsi" qəbul edilmiş, beləliklə, sivilizasiyalar arasında dialoqun inkişafını nəzərdə tutan "Bakı prosesi"nin və "Sənətçilər dialoq naminə" layihəsinin icrasına başlanmışdır. Mötəbər məclisdə Azərbaycan Prezidenti İlham Əliyevin proqram xarakterli nitqi, irəli sürdüyü təklif və tövsiyələr "Bakı prosesi"nin qlobal bir təşəbbüsə çevrilməsinə səbəb olmuşdur.

2009-cu ildə İslam ölkələrinin mədəniyyət nazirlərinin VI konfransında "Mədəniyyətlərarası dialoq" mövzusunda "dəyirmi masa" keçirilmiş və birgə kommünike qəbul edilmişdir. 2010-cu ildə isə bu regional təşəbbüs qlobal hərəkata çevrilməyə başlamışdır.

Azərbaycan dövləti tərəfindən həyata keçirilən xoşməramlı siyasət, həmçinin müxtəlif mədəniyyətlərin və qitələrin qovuşuğunda yerləşən ölkəmizin həm geosiyasi vəziyyəti, həm də mədəni zənginliyi "Bakı prosesi" çərçivəsində mədəniyyətlərarası dialoq təşəbbüslərinin Avropa və ona qonşu regionların hüdudları çərçivəsindən çıxarılaraq daha qlobal səviyyəyə yüksəldilməsini təmin etmişdir. BMT Baş Məclisinin 65-ci sessiyasında Prezident İlham Əliyev tərəfindən Bakıda Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun keçirilməsi təşəbbüsü elan edilmişdir.

2011-ci ilin aprelində isə I Dünya Mədəniyyətlərarası Dialoq Forumu uğurla baş tutmuş, bu tədbirdə konseptual əsaslar, idarəetmə, siyasətə dair müxtəlif aspektlərdə mədəniyyətlərarası dialoq məsələləri müzakirə edilmiş, forum bəşəriyyət üçün faydalı nəticələri ilə bütün dünyada rəğbətlə qarşılanmışdır.

Azərbaycan Prezidenti bu forumun hər iki ildən bir Azərbaycanda keçirilməsi barədə müvafiq fərman imzalamışdır. 2013-cü ilin mayında Bakı "Çoxmədəniyyətli dünyada sülh şəraitində birgə yaşamaq" şüarı altında II Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumuna da evsahibliyi etmişdir.

Ötən il təşkil olunan III Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda aparılan müzakirələrin əsas mahiyyəti isə bu qlobal tədbirin devizində əks olunmuşdu: "Mədəniyyəti ortaq təhlükəsizlik naminə paylaşaq". Foruma 10-dan çox beynəlxalq qurumdan rəhbər şəxslərin, 50-yə yaxın ölkədən nazir, nazir müavinləri, dünyanın nüfuzlu beyin mərkəzlərinin və media qurumlarının təmsilçilərinin, ümumilikdə 5 qitədən 500-ə yaxın xarici ölkə nümayəndəsinin qatılması dünyanın bu qlobal tədbirə böyük marağını göstərirdi.

Mədəniyyətlərarası dialoqun bütün sahələrdə inkişaf tendensiyaları, dünyada müasir qlobal çağırışlar, dini-ideoloji qarşıdurmalar, mədəni və sosial transformasiyalar fonunda ümumbəşəri dəyərlərin qorunması və s. bu kimi məsələlər beynəlxalq tədbirə qatılan məşhur şəxsiyyətlərin, siyasətçilərin, dövlət xadimlərinin, elm adamlarının ortaq müzakirə mövzusuna çevrilmişdi.

Aprelin 24-28-də Bakıda "İnklüziv cəmiyyətlərdə birgə yaşama: çağırış və məqsəd" devizi altında keçirilmiş BMT Sivilizasiyalar Alyansının VII Qlobal Forumu da respublikamız üçün uğurlu nəticələrlə tarixləşmişdir. Forumun yekunları ilə bağlı ən ümumi, ilkin qənaətsə budur: respublikamızın multikulturalizm sahəsində əldə etdiyi çoxəsrlik təcrübə müasir dünyada mütərəqqi model kimi qəbul olunur və maraqla qarşılanır.

Forum miqyasına, məqsədlərinə və müzakirə olunan məsələlərin aktuallığına görə respublikamız üçün həm də unikal təbliğat platforması kimi yadda qaldı. Dünyanın 147 ölkəsindən gəlmiş 2000-dək nüfuzlu qonaq bir neçə gün ərzində Azərbaycanın iqtisadi, siyasi, mədəni və multikultural sahələrdəki uğurlarının canlı şahidlərinə çevrildilər. Bir sıra nüfuzlu politoloqlar qeyd edirlər ki, Azərbaycan dünyada qarşılıqlı mədəni dialoqun və əməkdaşlığın yeni modelini yaradıb.

Forum zamanı və sonrakı mərhələdə səslənən bir-birindən maraqlı fikirlər bir ümumi nöqtədə kəsişir: forumun 2 il əvvəl Bakıda keçirilməsi barədə verilən qərar, əslində, heç də təsadüfi olmayıb. Konkret olaraq "Multikultural cəmiyyətin formalaşdırılmasında Azərbaycanın rolu" mövzusunda aparılan müzakirələrdə xüsusi vurğulanıb ki, respublikamız təkcə iqtisadi, siyasi, mədəni, habelə idman sahəsində əldə etdiyi böyük nailiyyətlərlə deyil, həm də mövcud ictimai-siyasi sabitlik, dini, milli, irqi dözümlülük və tolerantlıq amillərinə görə seçilir. Və bu tolerantlıqdan da irəli gələrək ölkəmizdə əsrlər boyu müxtəlif xalqların nümayəndələri dinc yanaşı yaşayıb, fərqli mədəniyyətlərin qarşılıqlı harmoniyası bənzərsiz multikultural məkanın formalaşmasını təmin edib.

Mötəbər tədbirin yekunlarının doğurduğu ən ümumi qənaətlərdən biri də budur ki, hazırda sivilizasiyalar arasında dialoqun ən mühüm problemlərindən biri multikulturalizmin zəif inkişaf etməsidir. Bu anlayışın mahiyyətində cəmiyyətləri daha çox ədalət, mərhəmət kimi ümumbəşəri ideyalara təşviq etmək cəhdləri olsa da, müasir dünyada hələ də qan tökülür, dinc insanlar qətlə yetirilir, münaqişə və müharibələrin qarşısı alınmır, "ikili standartlar"a yol verilir. Bu neqativ meyillərin multikulturalizmə və inklüziv dövlət modelinə real təhlükə olduğu göstərilib.

Beynəlxalq tədbirdə Azərbaycan multikulturalizminin inkişafında Heydər Əliyev Fondunun xidmətlərinin önə çəkilməsi də diqqətçəkici məqamdır: ölkəmizdə tolerantlıq ənənələrinin qorunması işinə mühüm əhəmiyyət verən fondun "Tolerantlığın ünvanı - Azərbaycan" layihəsi bu baxımdan xüsusi qeyd edildi. Layihə çərçivəsində Heydər Əliyev Fondu katolik, pravoslav kilsələrinin və sinaqoqların təmirinə töhfə verir. Müsəlman ölkəsi olan Azərbaycan tərəfindən Vatikanın tarixində ilk dəfə Romada müqəddəs Marçelino və Pyotr katakombaları bərpa edilib. Eyni zamanda "Or-Avner" Beynəlxalq Fondu ilə birgə Bakıda yaşayan yəhudi uşaqları üçün 600 yerlik təhsil mərkəzi inşa edilib.

"Sosial inteqrasiya sahəsində qabaqcıl metodlar" mövzusunda ikinci plenar iclasda çıxış edən Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri Mehriban Əliyeva bu tədbirin konstruktiv dialoqun inkişafına və sivilizasiyaların zənginləşməsinə töhfə verəcəyinə əminliyini ifadə etdi. Fondun rəhbəri Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən danışaraq, torpaqlarımızın 20 faizinin işğal olunduğunu, bir milyondan çox insanın qaçqın və məcburi köçkünə çevrildiyini, 900 qəsəbənin, 150 min evin, 693 məktəbin, 975 uşaq bağçasının, 695 xəstəxananın məhv edildiyini, 40 mindən çox nadir muzey eksponatının və materiallarının, 927 kitabxanadan 4,6 milyon kitabın və əlyazmaların qarət edildiyini dedi. Mehriban xanım Əliyeva xüsusi qeyd etdi: "Qürur hissi ilə bəyan etmək istəyirəm ki, tarixən bizdə milli və dini zəmində ayrı-seçkilik və düşmənçilik halları heç vaxt baş qaldırmayıb. İnsanlarımızın əksəriyyətinin müsəlman olmasına baxmayaraq, ölkəmizdə xristian, yəhudi və digər dinlər də təmsil olunub. Azərbaycanda 649 dini icma, o cümlədən 24 qeyri-müsəlman icması fəaliyyət göstərir... Əhalinin bütün seqmentlərinə qarşı yüksək səviyyəli sosial tolerantlıq inkişaf etmiş cəmiyyətin göstəricisidir. Hesab edirəm, ən vacib nailiyyətlərimizdən biri bu gün Azərbaycan cəmiyyətində həmin səviyyədə sosial tolerantlığın mövcud olmasıdır".

*Forumun yekunda qəbul etdiyi Bakı bəyannaməsində də qeyd olunduğu kimi, sivil, mədəni dialoq mühiti və birgəyaşayış, başqa mədəniyyətlərə hörmət yeni dövrün ən aktual çağırışıdır. Və bu çağırışa əməl edərək beynəlxalq səviyyədə sülhün, iqtisadi tərəqqi və sosial rifahın, sivil mədəni harmoniyanın formalaşmasını təşviq edən ölkələr sırasında Azərbaycan ön sıralardadır.*

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***